# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

# F Ə R M A N I

**“Naxçıvan Muxtar Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinin əməkhaqlarının artırılması və “Naxçıvan Muxtar Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2004-cü il 20 avqust tarixli 147-01/S nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2022-ci il 5 mart tarixli 118-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinin əməkhaqlarının artırılması və “Naxçıvan Muxtar Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2004-cü il 20 avqust tarixli 147-01/S nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2022-ci il 5 mart tarixli 118-VI FR nömrəli Fərmanına Əlavə - “Rəhbərinin və onun müavinlərinin aylıq vəzifə maaşına əlavə müəyyən edilən mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan dövlət orqanlarının Siyahısı”nda (bundan sonra - Siyahı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9-cu hissədə “Rabitə və Yeni Texnologiyalar” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə əvəz edilsin;

1.2. 14-cü və 15-ci hissələr aşağıdakı redaksiyada verilsin:

“14. Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi

15. Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi”;

1.3. 16-cı hissə ləğv edilsin.

2. “Naxçıvan Muxtar Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinin əməkhaqlarının artırılması və “Naxçıvan Muxtar Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2004-cü il 20 avqust tarixli 147-01/S nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2022-ci il 5 mart tarixli 118-VI FR nömrəli Fərmanının 2.2-ci bəndi Siyahının 9-cu, 14-cü və 15-ci hissələrində nəzərdə tutulan mərkəzi icra hakimiyyəti orqanlarının rəhbər və müavinlərinə həmin vəzifəyə təyin olunduqları gündən tətbiq edilir.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini:** **ANAR İBRAHİMOV**

Naxçıvan şəhəri, 04 iyul 2024-cü il
№ 243-VI FR